UOT-811.11-112
Səhifə:13-17
https://doi.org/10.59849/2663-8967.2026.2.13

Zenfira Əliyeva
AMEA Nəsimi adına Dilçilik İnstitutu,
filologiya elmləri doktoru, dosent

ONOMASİOLOGİYANIN ƏSAS PROBLEMLƏRİ

XÜLASƏ

Məqalədə onomasiologiyanın əsas terminləri –nominasiya, nominasiya prinsipləri, nominasiya vasitələri və adlandırma növləri nəzərdən keçirilir. Bütün elm sahələri öz formalaşmasının ilkin mərhələsində tədqiq olunan element və komponentlərin sistemləşdirilməsi məqsədilə öz terminologiyasını və metodilini nizamlayır.

Hər hansı bir problemin araşdırılmasında ilk addımlar məhz terminologiyanın dəqiqləşdirilməsi ilə bağlı olur. Müasir dövrdə onomasiologiya dilçiliyin sürətlə inkişaf edən və perspektivli sahələrindən biri hesab olunur. Buna görə də onomasiologiyanın çoxsaylı terminləri yalnız leksikologiya, semasiologiya, etimologiya və söz yaradıcılığı sahəsində çalışan dilçilərin deyil, həmçinin insan-cəmiyyət və insan-təbiət münasibətlərini araşdıran alimlər də əsərlərində geniş istiqamətləndirilir.

Açar sözlər: *onomasiologiya, nominasiya, terminologiya, metadil, terminologiyada element və komponentlərin sistemləşdirilməsi, dilçilik tarixi, dil əlamətləri, onomasiologiyanın problemləri.*

Giriş: İstənilən elm sahəsi formalaşmasının ilkin mərhələsində tədqiq olunan element və komponentlərin sistemləşdirilməsi məqsədilə öz terminologiyasını və metodilini nizamlayır. Hər hansı bir problemin araşdırılmasında ilk addımlar məhz terminologiyanın dəqiqləşdirilməsi ilə bağlı olur. Çünki yalnız elmi anlayışlar sistemi qaydaya salındıqdan sonra həmin elmin mahiyyətini izah etmək mümkündür.

Adətən müəyyən elm sahəsinə aid terminlərin tərifl ərindəki fərqlər həmin sahənin sürətli inkişafı ilə əlaqədar olur. Müasir dövrdə onomasiologiya dilçiliyinin sürətlə inkişaf edən və perspektivli sahələrindən biri hesab edilir. Bu elm dilin yaranma mənbələrinin , müxtəlif xalqların dünya qavrayışının xüsusiyyətlərinin və bunların dilin dünya görüşü modelində əks olunmasının öyrənilməsinə kömək edir.

Onomasiologiyanın problemləri dilçilik tarixində hələ antik dövrdən etibarən diqqət mərkəzində olmuşdur. Qədim mütəfəkkirlər dilin mənşəyi məsələsinə cavab axtarmağa çalışırdılar. Əslində isə bu problem bu günədək tam həll olunmamış, yalnız müxtəlif fərziyyələr sistemi ilə izah edilməyə çalışmışdır. Müasir alimlər dili verilmiş bir reallıq kimi qəbul edir və onun köklərini müəyyən xalqın dünya görüşündə görürlər. İnsan ətraf aləmi öz mənəvi dəyərləri, mədəni adətləri və dil ənənələri prizmasından qavrayır [2, s.43-46].

Dil ənənələrinin formalaşması isə məhz həmin amillərin təsiri altında baş verir. Bu proseslərin öyrənilməsi onomasiologiyanın əsas tədqiqat predmetini təşkil edir. Buna görə də onomasiologiyanın çoxsaylı terminləri yalnız leksikologiya, semasiologiya, etimologiya və söz yaradıcılığı sahəsində çalışan dilçilərin deyil, həmçinin insan-cəmiyyət və insan təbiət münasibətlərini araşdıran alimlərin də əsərlərində geniş işıqlandırılır.

Dilçilikdə onomasiologiyaya aid terminlər müxtəlif şəkildə şərh olunur. Təəssüf ki, bütün onomasioloji anlayışlar və onlara uyğun terminlər kifayət qədər müəyyənləşdirilməmişdir. Məsələn, nominasiya sistemi və nominasiya vasitələri kimi anlayışların dəqiqləşdirilməsinə ehtiyac vardır. Həmin dövrdən etibarən ətraf aləmin reallıqlarının adlandırılmasını öyrənən elm xeyli inkişaf etsə də, onun metadil problemi hələ də tam həll olunmamışdır. Əksinə, bu sahədə

yeni tədqiqatların meydana çıxması əsas onomasioloji terminlərin müxtəlif izah və şərtlərinin sayını daha da artırmışdır [3, s.13-14].

Tədqiqatçılar bu məsələyə dəfələrlə müxtəlif mövqelərdən yanaşmış və terminlərin məzmununu fərqli dərəcələrdə konkretləşdirməyə çalışmışlar. Onlar bəzi onimasioloji anlayışların sərhədlərini müəyyənləşdirməyə cəhd etmiş, "nominasiya" termininin müxtəlif izahlarını araşdırmışlar. Alimlər mövcud elmi araşdırmalar nəzərə alınmaqla əsas onomasioloji anlayışların müasir dilçilik baxımından təhlilini aparmışlar. Onomasiologiyanın mərkəzi anlayışı nominasiyadır. Nominasiya latın dilində nominatio – adlandırma sözündən götürülmüşdür və çoxmənalı termindir.

Bu termin:

1. adlandırma prosesini;
2. həmin prosesin nəticəsini, yəni adı;
3. adlandırma aktlarının strukturunu öyrənən dilçilik sahəsini ifadə edir.

Bundan əlavə, nominasiya sözün nominativ funksiyası mənasında da işlənilir.

Nominasiyanın birinci mənası leksik sistem vahidlərinin yaranması prosesi ilə bağlıdır. Ən qədim və sabit nəzəriyyələrdən birinə görə dillər qeyri-dil obyektlərindən ibarət olan dünyanı əks etdirir və ya ona uyğun gəlir.

Klassik ənənədə bu əksetdirmənin üç aspekti qeyd olunur:

1. Təfəkkür obyektlərinin xüsusiyyətlərini əks etdirir.
2. İnsan beyninin təmsilçilik funksiyası verdiyi səslərdən ibarət danışıq dili düşüncə hadisələrinin növlərini və münasibətlərini əks etdirir.
3. Bununla da dil qeyri-zehni obyektlər dünyasını əks etdirmiş olur.

Fikrimizcə, səs kompleksinin ad verilən predmetin ümumiləşdirilmiş (invariant) təfəkkür obrazı ilə birləşməsi həmin predmetin nominasiyasıdır. Ümumiyyətlə, obyektiv reallığın bir aktı kimi, nominasiya insanı bütün həyatı boyu müşayiət edir. Tədqiqatçılar nominasiyanı ikili xarakter daşıyan hadisə kimi qiymətləndirirlər: bir tərəfdən hər bir insan ontogenez prosesində onu mənimsədiyi üçün fərdi hadisədir. Digər tərəfdən isə bütün insanlara xas olduğuna görə universal xarakter daşıyır. Buna görə də nominasiya aşağıdakı istiqamətlər üzrə öyrənilə bilər:

1. Uşaq nitqi.
2. Adlandırma prosesi.
3. Dilin mənimsənilməsi prosesi.
4. Dil ilə gerçəklik arasındakı əlaqə.
5. Qavrayış prosesi.

Onomasiologiyada nominasiya bir neçə növə bölünür. Əsas sözlərin xarakterinə görə nominasiya ilkin və ikinci dərəcəli nominasiya olmaqla iki yerə ayrılır.

İlkin nominasiya reallıq elementlərinin (həm əşya, həm də hadisə səviyyəsində) düzəltmə olmayan sözlər vasitəsilə ifadə edilməsidir. Düzəltmə olmayan sözlər sinxron planda dil daşıyıcıları tərəfindən ilkin, başqa sözlərdən yaranmamış vahidlər kimi qəbul olunur.

Bu sözlər ətraf aləminin fraqmentlərini birbaşa, şərti və möhkəmləndirilmiş şəkildə ifadə edir [5, s.170-171].

Bu mənada ilkin nominasiya müasir dillərdə olduqca nadir hadisə hesab olunur. Çünki bütün dillərin ilkin leksik fondu əsrlər boyu formalaşaraq sabitləşmişdir. Məsələn, türk dillərində dünyanın ilkin mənzərəsini əks etdirən əsas birhecalı kök sözlər qədim türk leksikasının ən qədim qatını təşkil edir.

XX əsrin ilk onomasioloqları Ferdinand de Sössürün dil işarəsinin şərtiliyi və motivləşdirilməsi nəzəriyyəsinə əsaslanaraq sözün mənası ilə onun səslənməsi arasında əlaqəni qəbul etmirdilər. Bunun əksinə olaraq, antik dövr mütəfəkkirləri və orta əsr alimləri ilk növbədə məna ilə səsləndirmə arasındakı qarşılıqlı əlaqəni müəyyənləşdirməyə çalışırdılar. Bu ideya sonralar XX əsr rus dilçiliyində inkişaf etdirilmiş və nəticədə fonosemantika adlanan yeni tədqiqat istiqaməti yaranmışdır. Fonosemantika dillərdə sözlərin fonetik quruluşunun adların mənası ilə əlaqəli qanunauyğunluqlarını araşdırır. İlkin nominasiya sözün fonem tərkibi ilə sıx bağlı olduğundan, fonosemantik təhlilin nəticələri onun öyrənilməsi üçün mühüm elmi əsas rolunu

oynaya bilər. İkinci dərəcəli (sekundar nominasiya reallıq elementlərinin törəmə leksik-semantik vahidlər vasitəsilə) adlandırılmasıdır. Bu sema yaradıcılığı adlandırılır. İkinci dərəcəli nominasiya dillərdə müasir vəziyyəti üçün xarakterikdir, çünki bu gün dillərin leksik fondunun zənginləşməsi əsasən söz yaradıcılığı və məna köçürülməsi hesabına baş verir. Beləliklə, leksik sistem vahidlərinin yaranması prosesi nominasiya adlanır.

Nominasiya anlayışının ikinci mənası məntiqi baxımdan "leksem", "adlandırma", "ad", "termin" anlayışları ilə əlaqəlidir. Bununla yanaşı, bu anlayışlar arasında müəyyən fərqlər də mövcuddur. "Termin" və "nominasiya" anlayışları arasında ümumi və xüsusi münasibət mövcuddur. "Termin" və "nominasiya" anlayışları arasında ümumi və xüsusi münasibət mövcuddur. Hər bir termin nominasiyadır, lakin hər bir nominasiya termin deyil. Bu yanaşma bəzi tədqiqatçılara nominasiyanın üçüncü növünü tersial (üçüncü dərəcəli nominasiyanı ayırmağa əsas vermişdir). Bu növ nominasiya terminlərin yaranması prosesini nəzərdə tutur.

Adlandırma haqqında elmi ifadə etmək üçün "nominasiya" termini ilə yanaşı "onomasiologiya", "onomatologiya", "nominasiya nəzəriyyəsi" terminlərindən də istifadə olunur. Onun antonimi isə "semasiologiya" terminidir.

Məsələn, onomasiolagiya ilə semasiologiya arasındakı fərq belə izah edilir [1, s.37-39].

Adlandırma haqqında elmi ifadə etmək üçün "nominasiya" termini ilə yanaşı "onomasiologiya", "onomatologiya", "nominasiya nəzəriyyəsi" terminlərindən də istifadə olunur. Onun antonimi isə "semosiologiya" terminidir. Məsələn, onomosiologiya ilə semasiologiya arasındakı fərq belə izah edir [1,s.37-39].

Onomasioloji yanaşma dil vahidlərinin məzmun tərəfini onların sistemdaxili mənalarının formalaşması və sözlərin, söz birləşmələrinin semantik genişlənməsi baxımından deyil, onların predmet yönümlüyü, yəni dil vahidlərinin dildənkənar obyektlərlə adlandırma vasitəsi kimi əlaqəsi baxımından araşdırılır. "Onomasiologiya" termini ilk dəfə 1902-ci ildə Avropa alimi A.Tsauner tərəfindən işlədilmişdir. O qeyd edirdi ki, onomasioloji istiqamətin başlanğıc nöqtəsi anlayışdır və bu istiqamət həmin anlayışın dildə hansı adlara ifadə olunduğunu müəyyənləşdirir. Bu baxımdan onomasiologiya leksikologiyanın bir bölməsi kimi nəzərdən keçirilir.

Digər dilçilər hesab edirlər ki, onomasiologiya semasiologiyanın xüsusi bir sahəsidir və ona tabedir.

O.S.Axmatovanın lüğətində onomasiologiya:

1. Semasiologiyanın bir bölməsi.
2. İşarələmə, adlandırma və nominasiya haqqında elm kimi müəyyən edilir.

Bunun səbəbi nominasiya nəzəriyyəsinin bir çox anlayışının, xüsusilə adlandırma anlayışının semasiologiyanın ümumi kateqoriyaları ilə sıx bağlı olmasıdır. Üçüncü qrup alimlər isə bu fikirdədirlər ki, onomasiologiyaya ən yaxın sahə söz yaradıcılığıdır. Göründüyü kimi, onomasiologiyanın dilçilikdə tutduğu yer hələ də dəqiq müəyyənləşdirilməmişdir. Onomasiologiya bir elm kimi hələ tam formalaşmayıb onun əsas inkişaf mərhələsi gələcəkdədir və onun predmetini yalnız leksik vahidlərin yaranma prosesi və bu yaranmanın modeli təşkil etməlidir. Bir məsələ isə aydındır: onomasiologiya adlandırma nəzəriyyəsi ilə məşğul olan, xarici aləmin əşya və hadisələrinə ad verilməsi prosesini öyrənən elmdir.

Ümumiyyətlə, "nominasiya" termini müasir dilçilikdə olduqca geniş və sərbəst şəkildə istifadə olunur. Buna görə də aşağıdakı termin birləşmələri meydana çıxmışdır: frazeoloji nominasiya (Y.P.Solodub) antroponimik nominasiya (V.İ.Roqorina) paralel nominasiya (L.K.Sanalina) təkrar nominasiyası (V.Q.Qak) kommersiya nominasiyası (M.E.Novçixina).

Dil nominasiyasının mexanizmlərində spontanlıq və şüurluluq nisbətinə əsaslanaraq tədqiqatçılar "təbii nominasiya" və "süni nominasiya" anlayışlarını fərqləndirilər.

Bu bölgüyə uyğun olaraq dörd növ nominasiya ayırd edilir:

1. Dil normalarına uyğun şəkildə və təbii yolla yaranan nominasiyalar (normal və təbii nominasiyalar, ilkin nominasiyalar).

2. Mutasiyalar, yəni standart xarakter daşıyan, lakin dil daşıyıcıları tərəfindən hiss edilmədən yaranan nominasiyalar (ikinci dərəcəli nominasiyalar). Bunlara metafora və metonimiya əsasında yaranmış adlandırılmalar daxildir: Məsələn, qara qızıl-neft. Bu cür

nominasiyalar assosiativ təfəkkürə əsaslanır və ətraf aləmdəki hadisə və predmetlər arasındakı real əlaqələri əks etdirir.

3. Şüurlu şəkildə yaradılan nominasiyalar: yəni məqsədyönlü adlandırma nəticəsində formalaşan və cəmiyyətin leksik fonduna qəsdən daxil edilən adlar (süni nominasiyalar): mobil telefon, azarkeş və s.

4. Patoloji nominasiya- normadan kənara çıxmanı ifadə edən və ekstralinqvistik amillərin nəticəsində yaranan nominasiya. Buraya daxildir: nanotexnologiya, kompüterləşmə, standart.

Struktur baxımından onomasiologiya nominasiya prinsipləri, nominasiya üsulları, nominasiya vasitələri və motivləri sistemindən ibarətdir.

Nominasiya prinsipləri anlayışı: Müasir onomasiologiyada "nominasiya prinspləri" anlayışı müxtəlif terminlərlə ifadə olunur və kifayət qədər geniş istifadə edilir. Nominasiya nəzəriyyəsində bu anlayış adətən tematik cəhətdən birləşən predmetlər qrupunun müəyyən xüsusiyyətləri ifadə edir. Bu prinsiplərdə müxtəlif leksik qruplarda reallıqların adlandırılması qanunauyğunluqları öz əksini tapır. Gerçəklikdə mövcud olan obyekt və hadisələrin adlandırılması prinsipləri müasir dilçiliyin ən mühüm problemlərindən biri olmuş və olmaqda davam edir. Bu prinsiplərin müəyyənləşdirilməsi və öyrənilməsi leksikologiyanın bir çox sahələri üçün böyük əhəmiyyət daşıyır. Çünki burada etnolinqvistikanın, sosiolinqvistikanın, psixolinqvistikanın, koqnitiv dilçiliyin əsas problemləri cəmləşir.

Bütün bunlar sözlərin araşdırılmasına, dilin gerçəklikdə münasibətinin öyrənilməsinə, dil mənzərəsinin formalaşmasının izahına, tematik qrupların milli xüsusiyyətlərinin müəyyənləşdirilməsinə, nominativ vahidlərin növləri nominasiya üsulları və vasitələri ilə qarşılıqlı əlaqələrin tədqiqinə, söz yaradıcılığı kateqoriyaların araşdırılmasına kömək edir.

Nominasiya prinsiplərinin öyrənilməsində həlledici rol dildənkənar (ekstralinqvistik) amillərə məxsusdur. Həm nominasiya prinsiplərinin müəyyənləşdirilməsi, həm də adların təsnifatı məhz bu amillərə, yəni obyektlərin öz xüsusiyyət və əlamətlərinə əsaslanır. Bu istiqamətdə aparılmış leksikoloji tədqiqatlar aşağıdakı nominasiya prinsiplərini müəyyən etməyə imkan verir.

1. Denotantın xarici görünüşünə görə nominasiya (rəng, forma ölçü).
2. Denotantın daxili xüsusiyyətlərinə görə nominasiya (xarakterik əlamətlər).
3. Funksiyaya görə nominasiya .
4. Denotantın sayına görə nominasiya.

Bir çox müəlliflər nominasiya üsullarını adların yaradılması yolları kimi başa düşürlər. Digər qrup dilçilər isə bu termini motivləşdirici əlamətlə ifadə olunan nominasiya prinsiplərinin həyata keçirilməsi üsulu kimi izah edirlər.

Başqa sözlə, nominasiya prinsipi adlandırılan obyektə ümumi yanaşmanı ifadə edir, müəyyənləşdirici əlamət isə həmin yanaşmanı konkretləşdirir.

Nominasiya prinsipləri əsasında nominasiya vasitələri müəyyənləşdirilir. Bunlar nominasiya prosesində birbaşa iştirak edən və onun həyata keçirilməsini təmin edən dil vahidləridir. Nominasiya vasitələrinə aşağıdakılar daxildir: fonetik vasitələr; morfoloji vasitələr; leksik-frazeoloji vasitələr; sintaktik vasitələr.

Nominasiyadan əvvəl motivasiya prosesi gəlir. Motivasiya əşya və hadisələrin adlandırılması aktının əsas şərtidir. Buna görə də nominasiya nəzəriyyəsində "motiv" termini mühüm yer tutur.

Motiv – adın əsaslandığı əlamət, başqa sözlə, sözün daxili formasıdır. Motiv sözün leksik mənasının strukturunda siqnitikativ və denotativ komponentlərlə birlikdə iştirak edir.

Nəticə: Müasir mərhələdə nominasiya nəzəriyyəsi nəzəri baxmadan kifayət qədər əsaslandırılmışdır və onomasiologiyanın bir sıra istiqamətləri artıq müstəqil elm sahələri kimi formalaşmışdır.

Bununla belə, bəzi terminlərin müxtəlif tədqiqatçılar tərəfindən fərqli şəkildə şərh olunması nəzəri problemlərin həllində müəyyən çətinliklər yaradır. Bu səbəbdən hesab edilir ki, nominasiya nəzəriyyəsinin gələcək inkişafı ilk növbədə mövcud terminologiyanın vahidləşdirilməsinə, ümumi qəbul olunmuş standart metadilin formalaşdırılmasına əsaslanır. Bu

isə nominasiya nəzəriyyəsinin bütöv sistemli və birmənalı şəkildə şərh olunan elmi konsepsiya kimi inkişafına imkan verəcəkdir.

Ədəbiyyat siyahısı

1. Якобсон Р. Проблема значения в системе языка. Москва, 1967, с.43-45.
2. Гацак В.М. Проблема значения. Москва: Наука, 1977, с.51-54.
3. Равшанов М. Семиологическая и лексикографическая характеристика номинативных единиц. Ташкент, 2024, с.31-35.
4. Ковтун Л.С., Шанский Н.М., Шмелёв Д.Н. Языковая номинация. Ленинград, 1971, с.170-171.
5. Venuti L. The translators invecibilitu. Rutledge, 1995.

Zenfira Aliyeva

The fundamental problems of onomology

Summary

The article examines the main terms of onomosiology, nomination, prinsiples of nomination, and tupes of naming. Theroughout all stages of their development , all fields of science organize, their terminology and methods in order to systematize the elemenets and components under study. The first steps in investigating any problem are precisely related to the clarification of terminology. In the modern period , onomosiology is considered one of the rapidly developing and promising fields of linguistics. Therefore the numerous terms of onomosiology are widely discussed not only in the works of linguists specializing in lexicology, semasiology, etymology, and word ford formation, but alco in the works of scholars who study human society and human-nature relations.

Key words: *onomasiology, nomination, prinsiples of nomination, means of nomination, types of naming, terminology, lexocology, sevasiology, etymology, word formation.*

Зенфира Алиева

Фундаментальные проблемы ономасиологии

Резюме

В статье анализируются основные термины ономасиологии: номинация, принципы номинации, средства и виды номинации. Все отрасли науки в начальный период своей формализации с целью систематизации элементов и компонентов создают свою терминологию и свой метаязык.

В исследовании каждой проблемы сначала конкретизируется терминология. В современном языкознании ономасиология является перспективной областью языкознания. Именно поэтому многочисленные термины ономасиологии интересуют не только лексикологов , семасиологов, этимологов, но и философов и социологов.

Ключевые слова: *ономасиология, номинация, терминология, метаязык, систематизация элементов и компонентов в терминологии, история языкознания, языковые традиции, проблемы ономасиологии.*

Çapa tövsiyə edən: AMEA Nəsimi adına Dilçilik İnstitutu

Rəyçilər: professor S.Sadıqova
filologiya elmləri doktoru Baba Məhərrəmli